# İslamın Fəziləti



Müəllif: **Muhəmməd bin Süleyman**
Tərcümə: **Səid Ələkbərov**

# İSLAMIN FƏZİLƏTİ

Müəllif: Muhəmməd bin Süleyman

Tərcümə: Səid Ələkbərov

# MÜNDƏRİCAT


1-Cİ FƏSİL: İSLAMIN FƏZİLƏTİ ........ 3

2-Cİ FƏSİL: İSLAMA DAXİL OLMAĞIN VACİBLİYİ ........ 6

3-CÜ FƏSİL: İSLAMIN TƏFSİRİ ........ 9

4-CÜ FƏSİL: İSLAMDAN BAŞQA DİNİN QƏBUL OLMAMASI ........ 10

5-Cİ FƏSİL: QURANA TABE OLMAĞIN VACİBLİYİ ........ 11

6-CI FƏSİL: İSLAMDAN BAŞQA ADA NİSBƏT OLUNMAĞIN İSLAMDAN ÇIXARMASI ........ 12

7-Cİ FƏSİL: İSLAMIN TAM OLARAQ QƏBUL EDİLMƏSİ VƏ ONDAN BAŞQASININ TƏRK OLUNMASI ........ 14

8-Cİ FƏSİL: BİDƏTİN (DİNDƏ YENİLİYİN) BÖYÜK GÜNAHLARDAN DAHA ŞİDDƏTLİ OLMASI ........ 16

9-CU FƏSİL: BİDƏT SAHİBİNİN TÖVBƏYƏ MÜVƏFFƏQ OLMAMASI ........ 18

10-CU FƏSİL: “EY KITAB ƏHLI! NƏ ÜÇÜN İBRAHIM BARƏSINDƏ HÖCƏTLƏŞIRSINIZ?” – “O, (İBRAHİM) ALLAHA ŞƏRİK QOŞANLARDAN DEYİLDİ.” ........ 19

11-Cİ FƏSİL. ALLAH TƏALA BUYURUR: “SƏN ÜZÜNÜ ALLAHIN YARATDIĞI HƏNİF OLAN DİNƏ YÖNƏLT. ALLAH İNSANLARI ÖZ FİTRƏTİ (İSLAM) ÜZƏRİNDƏ YARATMIŞDIR. ALLAHIN YARATDIĞINI (TÖVHİD DİNİ) DƏYİŞDİRMƏK OLMAZ. DOĞRU DİN BUDUR, LAKİN İNSANLARIN ƏKSƏRİYYƏTİ BİLMİR.” ........ 21

12-Cİ FƏSİL. İSLAMIN QƏRİBLİYİ VƏ QƏRİBLƏRİN FƏZİLƏTİ ........ 26

13-CÜ FƏSİL. BİDƏTDƏN ÇƏKİNMƏK ........ 29

# MƏRHƏMƏTLİ VƏ RƏHMLİ ALLAHIN ADI İLƏ

## 1-Cİ FƏSİL: İSLAMIN FƏZİLƏTİ

Allah təalə buyurur:

﴿ اليَومَ أكمَلتُ لَكُم دِينَكُم وَأتمَمتُ عَلَيكُم نِعمَتِى وَرَضِيتُ لَكُمُ الإسلاَمَ دِينا ﴾ [المائدة:3]

**"Bu gün dininizi sizin üçün kamil etdim, sizə olan nemətimi tamamladım və bir din olaraq sizin üçün İslamı bəyənib seçdim." (Əl-Maidə: 3)**

Allah təalə buyurur:

﴿ قُلْ يَٰٓأَيُّهَا ٱلنَّاسُ إِن كُنتُمْ فِى شك مِّن ديني فلاء أَعْبُدُ لذين تَعْبُدُونَ مِن دُونِ ٱللَّهِ وَلَٰكِنْ أَعْبُدُ ٱللَّهَ ٱلَّذِى يَتَوَفَّىٰكُمْ ﴾ [يونس:104]

**De: "Ey insanlar! Dinimə şəkk edirsinizsə, (bilin ki,) mən Allahdan başqa tapındıqlarınıza deyil, canınızı alacaq Allaha ibadət edirəm. Mənə möminlərdən olmaq əmr edilmişdir" (Yunus: 104)**

Allah təalə buyurur:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ ٱتَّقُوا۟ ٱللَّهَ وَءَامِنُوا۟ بِرَسُولِهِۦ يُؤْتِكُمْ كِفْلَيْنِ مِن رَّحْمَتِهِۦ وَيَجْعَل لَّكُمْ نُورًا تَمْشُونَ بِهِۦ وَيَغْفِرْ لَكُمْ ۚ وَٱللَّهُ غَفُورٌ رَّحِيمٌ ﴾ [الحديد:28]

**"Ey iman gətirənlər! Allahdan qorxun və Onun elçisinə iman gətirin! Onda O sizə Öz mərhəmətindən iki pay bəxş edər, sizə (düz yolla) getməyiniz üçün nur verər və sizi bağışlayar. Allah Bağışlayandır, Rəhmlidir." (Hədid: 28)**

İbn Ömərdən (Allah ondan və atasından razı olsun) rəvayət olunan səhih bir hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) demişdir:

*"Sizin məsəliniz və iki kitab[1] əhlinin məsəli işçiləri əməyinin müqabilində işə götürən şəxsin məsəlinə bənzəyir.*

*– İşə götürən dedi: Kim sabahın erkən vaxtından günün yarısına qədər bir qirat[2] qarşılığında mənim üçün iş görər? Bunun qarşılığında yəhudilər işlədi.*

---

1 Yəhudi və xristianlar nəzərdə tutulur.

2 Pul vahidi dirhəmin altıda biri.

*– Sonra işə götürən dedi: Kim günün yarısından əsr namazının (son) vaxtına qədər bir qirat qarşılığında mənim üçün iş görər? Bunun qarşılığında da xristianlar işlədi.*

*– Sonra yenə işə götürən dedi: Kim əsr namazının vaxtından günəşin batışına qədər mənim üçün iki qirat qarşılığında işləyər?*

*Bu ikiqat əcrə nail olan sizlərsiniz. Yəhudi və xristianlar buna qəzəblənərək dedilər: "Bizə nə olub ki, daha çox çalışdıq, lakin daha az qazandıq?"*

*Allah buyurdu: "Sizin haqqınızdan bir şey əskiltdimmi"? Dedilər: "Xeyr." (Bu dəfə Allah) buyurdu: "Bu mənim fəzilətimdir, mən onu istədiyimə verirəm."*[3]

Həmçinin, Əbu Hureyranın (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə buyurmuşdur: *"Allah bizdən əvvəl olanları (ümmətlər) cümə günündən yayındırmışdır. Bu səbəblə də şənbə günü yəhudilərin, bazar günu isə xristianların günü olmuşdur. Sonra Allah bizi dünyaya gətirdi və bizi cümə gününə yönəltdi. Beləliklə, onlar (yəhudi və xristianlar) Qiyamət günü bizə tabe olacaqlar. Biz dünya əhlinin sonuncularıyıq, Qiyamət günü isə birinciləri olacağıq".*[4]

Səhih bir hədisdə Peyğəmbər (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə buyurmuşdur: *"Allaha ən sevimli olan din haqq və asan olan dindir".*[5]

Ubey bin Kəbdən rəvayət olunan bir əsərdə belə deyilir: "Allahın yolu və Peyğəmbərinin sünnəti üzərində olun. Həqiqətən, haqq yolda və Peyğəmbərin sünnəti üzərində olan elə bir qul yoxdur ki, Ər-Rahməni zikr etdikdə Allah qorxusundan gözləri yaşarmasın. Belə olan halda ona cəhənnəm atəşi toxunmaz. Haqq yolda və Peyğəmbərin sünnəti üzərində olan elə bir qul yoxdur ki, Ər-Rahməni zikr etdikdə Allah qorxusundan bədəni titrəməsin. Belə olanın halı ancaq yarpağı qurumuş ağacın misalına bənzəyir. Çünki, bu ikisinin fərqi belədir: Külək o ağaca toxunduqda onun qurumuş yarpaqları tökülər. Eynilə, yarpaqları tökülən ağac kimi, o kəsin günahları silinər. Haqq yolda və Peyğəmbərin sünnəti üzərində

---

[3] Buxari, Kitab əl-İcar (2268)

[4] Muslim, Kitab əl-Cümə (856).

[5] Buxari "Ədəb əl-Mufrad" (287), (1/108). Əhməd "Musnəd" (1/236). Albani isnadına səhih deyib. İbn Həcər "Fəth əl-Bəri" (1/116) həsəndir.

olub az əməl etmək, haqq yola və Peyğəmbərin sünnətinə müxalif olub çox əməl etməkdən xeyirlidir.”[6]

Əbu Dərda demişdir: “Nə xoş Allahı haqqı ilə tanıyıb gecələri yatan və gündüzləri nahar (iftar) edənlərin halına! Gecəni yatmadan səhərə qədər oyaq qalıb gündüzü oruc tutan, bununla da özlərini aldadan axmaqların halı necə olacaq?! Əməlin təqva və yəqinliklə az olub ixlaslı olması, ibadətləri dağlar qədər olub qürürlananlardan daha əzəmətli, daha əfzəl və daha doğrudur.”[7]

---

[6] İbn Mubarək “Zuhd” (1/22),(89). İbn Əbi Şeybə “Musannəf” (7/224). Əbu Nəim “Hilyətu əl-Əvliyə” (1\253). İsnadı səhihdir.

[7] Əhməd “Zuhd” (738). Əbu Nəim “Hilyə” (1/211). İsnadı zəifdir, mənası isə səhihdir.

## 2-Cİ FƏSİL: İSLAMA DAXİL OLMAĞIN VACİBLİYİ.

Allah təalə buyurur:

﴿ وَمَن يَبۡتَغِ غَيۡرَ ٱلۡإِسۡلَٰمِ دِينٗا فَلَن يُقۡبَلَ مِنۡهُ وَهُوَ فِي ٱلۡأٓخِرَةِ مِنَ ٱلۡخَٰسِرِينَ ﴾ [آل عمران:85]

**“İslamdan başqa bir din axtaran şəxsdən, o (din) heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar.” (Ali-İmran: 85)**

Allah təalə buyurur:

﴿ إِنَّ ٱلدِّينَ عِندَ ٱللَّهِ ٱلۡإِسۡلَٰمُۗ ﴾ [آل عمران:19]

**“Həqiqətən, Allah dərgahında (qəbul olunan) din, İslamdır!” (Ali-İmran: 19)**

Allah təalə buyurur:

﴿ وَأَنَّ هَٰذَا صِرَٰطِي مُسۡتَقِيمٗا فَٱتَّبِعُوهُۖ وَلَا تَتَّبِعُواْ ٱلسُّبُلَ فَتَفَرَّقَ بِكُمۡ عَن سَبِيلِهِۦۚ ﴾[الأنعام:153]

**“Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, (o yollar) sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə (pis əməllərdən) çəkinəsiniz”. (Əl-Ənam: 153)**

Mücahid[8] (Allah ona rəhmət etsin) bu ayənin təfsirində belə demişdir: “Başqa yollara uymayın (tabe olmayın)”, yəni “bidətlərə və şübhələrə” tabe olmayın.

Aişədən (Allah ondan razı olsun) rəvayət olunan bir hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə demişdir: *“Kim bizim bu işimizdə (dinimizdə) ondan olmayan bir yenilik edərsə, o əməl rədd olunar (qəbul olunmaz)”.*[9]

Aişədən (Allah ondan razı olsun) rəvayət olunan başqa bir hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) buyurmuşdur: *“Kim bizim əmrimizə (dinimizə) müvafiq olmayan bir əməl edərsə, o əməl rədd olunar”.*[10]

---

[8] Mucahid bin Cəbr əl-Məkki. Məhşur tabeinlərdən olmuşdur. Hicri tarixi ilə 21 ci-ildə doğulmuş, 104 cü- ildə fəvat etmişdir. Allah ona rəhmət etsin.

[9] Buxari “Kitab əs-Sülh” (2697). Muslim “Kitab əl-Əqdiyyə” (1718).

[10] Buxari “Kitab əl-Etisam” (7350). Muslim “Kitab əl-Əqdiyyə” (1718). Əhməd “Musnəd” (26191).

Buxaridə (Allah ona rəhmət etsin) keçən Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət olunan bir hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə buyurmuşdur: *"Ümmətimin hamısı Cənnətə daxil olacaqdır. Yalnız üz çevirəndən başqa". Səhabələr: "Ey Allahın Elçisi, üz çevirənlər kimlərdir?" - deyə soruşdular. Buyurdu: "Kim mənə tabe olarsa, Cənnətə daxil olar. Kim də mənə qarşı çıxarsa, üz çevirmiş olar" - deyə buyurdu.*[11]

İbn Abbasdan (Allah ondan razı olsun) rəvayət olunan səhih bir hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) demişdir: *"Allahın ən çox qəzəbləndiyi insanlar üç sinifdir. Haram (Məkkə və Mədinə şəhərləri) bölgəsində zalımlıq edən, İslamda (müsəlman) olduğu halda cahiliyyət yollarına - adətlərinə can atan və haqsız yerə (zülm edərək) müsəlmanın qanını tələb edərək onun qanını axıdan kəslərdir".*[12]

Şeyxülislam İbn Teymiyyə (Allah ona rəhmət etsin) yuxarıda keçən hədisdə: "Cahiliyyətin yolları və adətləri" haqqında demişdir: "Cahiliyyət ümumi və xüsusi dərəcələrə ayrılır. Xüsusi odur ki, cahiliyyətin xisləti bir şəxsdə olur, digərində isə olmur. Kitab əhlindən, (yəhudilər və xristianlar) bütpərəstlərdən və yaxud da başqalarından qalmış cahiliyyətlər olur. Bunların hamısı peyğəmbərlərin gətirdiyi şəriətlərə müxalifdir."[13]

Huzeyfədən (Allah ondan razı olsun) rəvayət olunan səhih bir əsərdə keçir ki, o məscidə daxil olub elm öyrənənlərin halqasının yanına gələrək onlara belə demişdir: "Ey elm öyrənənlər! Müstəqim olun (Allahın dinində doğru, sadiq olun)! Əgər müstəqim olsanız, artıq hər kəsi xeyirdə ötüb keçmiş olarsınız. Əgər sağa və sola meyl etsəniz (yəni, Quran və sünnədən kənara yönəlsəniz) haqdan uzaqlaşaraq zəlalətə düşmüş olarsınız."[14]

Muhəmməd bin Vəddahdan rəvayət olunan bir əsərdə Abdullah bin Məsudun (Allah ondan razı olsun) belə dediyini söyləmişdir: "Elə bir il yoxdur ki, özündən sonra gələn il ondan şərli olmasın. Mən demirəm ki, bu ilə nisbətən gələn ildən yağış azalacaq. Nə də demirəm ki, bərəkət bu ilə nisbətən gələn ildən azalacaq. Nə də demirəm ki, (gələcəkdə) gələn əmir indiki əmirdən xeyirli olacaq. Lakin onu deyirəm ki, sizin alimlərinizin və xeyirli insanlarınızın həyatdan getməsi ilə

[11] Buxari "Kitab əl-Etisam" (7280).
[12] Buxari "Kitab əd-Diyət" (6882).
[13] Kitab "İqtida Sirat əl-Mustəqim" (1/79).
[14] Buxari "Kitab əl-Etisam bi-kitab və sunnə" (7282). Muhammməd bin Vaddah "Kitab əl-Bidə və ən-Nəhiy anhə" (Rəq: 17), (S: 18). İsnadı səhihdir.

sonradan ortaya çıxan toplumlar şəriət məsələlərini öz baxışları ilə qiyas edəcəklər. Məhz bu səbəbdən də, İslam zəifləyərək yıxılacaqdır.”[15]

[15] Muhəmməd bin Vaddah “Kitab əl-Bidə” (Rəq: 78),  (S: 76). Tabarani “Kəbir” (8551). Əsər zəifdir, lakin mənası səhihdir. İbn Həcər “Fətf” kitabında isnadına həsən demişdir.

## 3-CÜ FƏSİL: İSLAMIN TƏFSİRİ

Allah təalə buyurur:

﴿ فَإِنْ حَآجُّوكَ فَقُلْ أَسْلَمْتُ وَجْهِىَ لِلَّهِ وَمَنِ ٱتَّبَعَنِ ۗ﴾ [آل عمران:20]

**“Əgər onlar səninlə mübahisə edərlərsə, de: “Mən özümü ardımca gələnlərlə birlikdə Allaha təslim etmişəm!” (Ali-İmran: 20)**

Ömərdən (Allah ondan razı olsun) rəvayət olunan səhih hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə demişdir: *“İslam Allahdan başqa heç bir məbudun olmadığına və Muhəmmədin Allahın Elçisi olmasına şəhadət etmək, namaz qılmaq, zəkat vermək, oruc tutmaq və gücü çatdığı təqdirdə həcc etməkdir.”*[16]

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət olunan hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) buyurmuşdur: *“Müsəlman o kəsdir ki, digər müsəlmanlar onun dilindən və əlindən salamat olsunlar”.*[17]

Həkimin oğlu Bəhz atasından, o da babasından rəvayət edərək Allah Elçisindən (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) İslam haqqında soruşmuşdur. O da belə demişdir: *“İslam qəlbini Allaha təslim etmək, (hər bir halında) üzünü Allaha yönəltmək, vacib olan namazları qılmaq və vacib olan zəkatı əda etməkdir”.*[18]

Əbu Qiləbə Şam əhlindən olan bir kişidən, o da atasından rəvayət edərək Allah Elçisindən (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) “İslam nədir?” deyə soruşmuşdur. O da belə demişdir: *“Qəlbini Allaha təslim etmək və müsəlmanların sənin dilindən və əlindən salamat qalmasıdır.” Sonra “İslamda daha əfzəl olan nədir?” - deyə soruşdu. O da belə buyurdu: “İman etmək”. O da “İman nədir?” - deyə yenə soruşdu? O da belə buyurdu: “Allaha, Onun mələklərinə, kitablarına, peyğəmbərlərinə və ölümdən sonra dirilişə iman gətirməkdir”.*[19]

---

[16] Muslim Kitab əl-İman (8).

[17] Tirmizi “Əbvəbu əl-İman Ansaru Allah” (2627). Tirmizi səhih deyib. Nəsəi (4995), Əhməd (8918), İbn Hibban (180), Hakim (1/11) (22). Albani və Əhməd Şakir də hədisə səhih demişlər.

[18] Əhməd bin Hənbəl (5/3), Təbərani “Mucəm əl-Kəbir” (1036), İbn Hibban (160) səhih demişdir.

[19] Abdurrazzaq “Musannəf” (11/127). Əhməd bin Hənbəl “Musnəd” (4/114). Şueyib Arnavut Musnədin təliqində səhih demişdir (28/252).

## 4-CÜ FƏSİL: İSLAMDAN BAŞQA DİNİN QƏBUL OLUNMAMASI

Allah təalə buyurur:

﴿ وَمَن يَبْتَغِ غَيْرَ ٱلْإِسْلَٰمِ دِينًا فَلَن يُقْبَلَ مِنْهُ وَهُوَ فِى ٱلْءَاخِرَةِ مِنَ ٱلْخَٰسِرِينَ ﴾

**"İslamdan başqa bir din axtaran şəxsdən, o (din) heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar." (Ali-İmran: 85)**

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət olunan bir hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə buyurmuşdur: *“Qiyamət günü əməllər gətiriləcək. Namaz gətirilərək deyəcək: “Ey Rəbbim! Mən namazam.” Uca Allah buyuracaq: “Həqiqətən, sən xeyir üzərindəsən.” Sonra zəkat gətirilərək deyəcək: “Ey Rəbbim! Mən zəkatam.” Uca Allah buyuracaq: “Həqiqətən, sən xeyir üzərindəsən.” Sonra oruc gətirilərək deyəcək: “Ey Rəbbim! Mən orucam.” Uca Allah buyuracaq: “Həqiqətən, sən xeyir üzərindəsən.” Sonra isə (saleh) əməllərin hamısı gətiriləcək və Uca Allah hər birinə deyəcək: “Həqiqətən, sən xeyir üzərindəsən.” Nəhayət, sonra İslam gətiriləcək və deyəcək: “Ey Rəbbim! Sən Əs-Sələmsən*[20]*, mən isə İslamam.*[21] *Uca Allah buyuracaq: “Həqiqətən, sən xeyir üzərindəsən. Bu gün səninlə (səni qəbul edənləri) sevindirmək və səninlə (səni tərk edənləri) cəzalandırmaq günüdür.” Allah təalə Öz kitabında buyurmuşdur: "İslamdan başqa bir din axtaran şəxsdən, o (din) heç vaxt qəbul olunmaz və o, axirətdə ziyana uğrayanlardan olar.” (Ali-İmran: 85).*[22]

Aişədən (Allah ondan razı olsun) rəvayət olunan hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) demişdir: *“Kim bizim əmrimizə (dinimizə) müvafiq olmayan bir əməl edərsə, o əməl rədd olunar.”*[23]

---

[20] Uca Allahın adlarındandır. Mənası Uca Allahın bütün eyiblərdən, nöqsanlardan və müsibətlərdən uzaq və salamat olmasıdır.
[21] Təslim olan və salamatlıq istəyən deməkdir.
[22] Əhməd “Musnəd” (8727). Əbu Yələ (6231). Əhməd Şakir Musnədin təliqində isnadına səhih demişdir.
[23] Əhməd “Musnəd” Şueyib Aranvut isnadına səhih demişdir.

## 5-Cİ FƏSİL: QURANA TABE OLMAĞIN VACİBLİYİ

Allah təalə buyurur:

﴿ وَنَزَّلْنَا عَلَيْكَ ٱلْكِتَٰبَ تِبْيَٰنًا لِّكُلِّ شَىْءٍ ﴾ [النحل:89]

**"Biz Kitabı sənə hər şey üçün bir izah (bəyan) olaraq nazil etdik." (Ən-Nəhl: 89)**

Nəsəinin və başqalarının Peyğəmbərdən (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) rəvayət etdiyi hədisdə, Peyğəmbər (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) Ömər bin Xəttabın (Allah ondan razı olsun) əlində Tövrat (kitabından) vərəqlər gördükdə ona dedi: *"Ey Xəttabın oğlu yoxsa şübhədəsənmi? Vallahi, sizə günəş kimi açıq-aydın olan bir şəriət gətirmişəm. Əgər Musa (Allahın salamı onun üzərinə olsun) yaşasaydı və siz məni tərk edib ona tabe olsaydınız belə, zəlalətə düşərdiniz".*[24]

Başqa bir rəvayətdə isə, Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə buyurmuşdur: *"Musa (Allahın salamı onun üzərinə olsun) sağ olsaydı, ancaq mənə tabe olardı."* Ömər (Allah ondan razı olsun) "Rəbb olaraq Allahdan, din olaraq İslamdan, peyğəmbər olaraq Muhəmməddən razı qaldım" dedi.[25]

---

[24] Müəllif bu hədisin Nəsəidə keçdiyini zikr etmişdir, lakin hədis Nəsəidə zikr olunmamışdır. Hədisi Əhməd bin Hənbəl "Musnəd" (3/387). Dərimi "Sünən" (436). Əbu Yələ (4/102). Nəsirəddin Albani "İrva əl-Ğalil" (1589) isnadına həsən demişdir.

[25] Əhməd bin Hənbəl "Musnəd" (4/265-266). Diyəuddin Məqdisi "Əhədis əl-Muxtər" (115). Nəsirəddin Albani "İrva əl-Ğalil" (6/34).

## 6-CI FƏSİL: İSLAMDAN BAŞQA ADA NİSBƏT OLUNMAĞIN İSLAMDAN ÇIXARMASI

Allah təalə buyurur:

[الحج:78] ﴿هُوَ سَمَّىٰكُمُ ٱلْمُسْلِمِينَ مِن قَبْلُ وَفِى هَٰذَا﴾

**“Allah həm əvvəl (nazil etdiyi kitablarda), həm də bu (Kitabda) sizi müsəlman adlandırdı.” (Həcc: 78)**

Haris əl-Əşaridən (Allah ondan razı olsun) rəvayət olunan bir hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə demişdir: *“Allahın mənə əmr etdiyi beş xisləti mən də sizə əmr edirəm. (Başçını) dinləmək, itaət etmək, cihad etmək, hicrət etmək və camaat olmaq. Kim (müsəlmanların) camaatından bir qarış ayrılarsa, artıq islam bağını boynundan çıxartmışdır. Yalnız (tövbə edib) geri qayıdanlar istisnadır. Kim cahiliyyət çağırışının arxasınca gedərsə, şübhəsiz ki, o, cəhənnəmə atılanlardan olar. Bu zaman bir kişi soruşdu: “Ey Allahın Elçisi! Namaz qılıb, oruc tutsa da?” Allahın Elçisi: “Bəli, namaz qılıb, oruc tutsa da” - deyə cavab verdi. Allahın çağırışı ilə dəvət edin. O, sizi müsəlman, mömin və Allahın qulu olaraq adlandırmışdır.”*[26]

Səhih hədisdə gələn başqa bir rəvayətdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə buyurmuşdur: *“Kim camaatdan bir qarış ayrılarsa, onun ölümü cahiliyyətin ölümü kimi olar”*.[27]

Başqa bir hədisdə Allah Elçisi (Allahın salamı və xeyir duası onun üzərinə olsun) belə buyurmuşdur: *“Mən sizin aranızda (sağ) olduğum halda (Allah sizə hidayət etdikdən sonra), siz yenə də cahiliyyət adətləri ilə davranırsınız?”*[28]

Əbu Abbas[29] (Allah ondan razı olsun) demişdir: “(İslamda və Quranda gələn addan başqa) özünü bir nəsəbə, ölkəyə, irqə, məzhəbə və ya bir yola (insanlardan üstün tutub) nisbət edərək adlandırmaq İslam və Quran çağırışından çıxardır. Bunlar

---

[26] Tirmizi “Əbvəbu əl-Əmsəl” (2863) Səhih deyib. Əhməd bin Hənbəl “Musnəd” (4/130). İbn Hibban (14/125).
[27] Buxari “Kitab əl-Fitən” (7054, 7143). Muslim “Kitab əl-İmarət” (1849).
[28] Bu hədisi Zeyd bin Əsləm rəvayət etmişdir. Hədis İbn Cərir ət-Təbəri “Cami əl-Bəyan” (6/56). Şəvkani “Fəth əl-Qadir” (1/548), İbn Hişam “Sira ən-Nəbəviyyə” (1/155) kitablarında nəql olunmuşdur. Hədisin isnadı zəifdir. Lakin bu hədisə oxşar hədis Buxaridə (3518) və Müslimdə (2584) keçir. Buxari və Muslimdə “Mən sizin aranızda olduğum halda” cümləsi yoxdur.
[29] Əhməd bin Abdulhəlim əl-Hərrani.

cahiliyyətin lovğalıqlarındandır. O vaxt ki, bir mühacirli bir ənsarlı ilə münaqişə etdi. Mühacirli “Ey mühacirlər!” deyə mühacirləri, ənsarlı da “Ey ənsarlar!” deyə ənsarları çağırdı. Bu zaman Peyğəmbər (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) bunu eşitdikdə şiddətli şəkildə qəzəblənərək dedi: “Mən sizin aranızda olduğum halda, siz yenə də cahiliyyət adətləri ilə davranırsınız?”[30]

[30] Əhməd bin Abdulhəlim Əl-hərrani “Məcmu əl-Fətava” (28/328, 329)

## 7-Cİ FƏSİL: İSLAMIN TAM OLARAQ QƏBUL EDİLMƏSİ VƏ ONDAN BAŞQASININ TƏRK OLUNMASI

Allah təala buyurur:

﴿ يَٰٓأَيُّهَا ٱلَّذِينَ ءَامَنُوا۟ ٱدْخُلُوا۟ فِى ٱلسِّلْمِ كَآفَّةً ﴾ [ البقرة:208 ]

**“Ey iman gətirənlər! İslamı bütövlüklə qəbul edin.” (Əl-Bəqərə: 208).**

Allah təala başqa ayədə buyurur:

﴿ أَلَمْ تَرَ إِلَى ٱلَّذِينَ يَزْعُمُونَ أَنَّهُمْ ءَامَنُوا۟ بِمَآ أُنزِلَ إِلَيْكَ وَمَآ أُنزِلَ مِن قَبْلِكَ ﴾ [النساء:60]

**“Sənə nazil edilənə və səndən əvvəl nazil edilənlərə iman gətirdiklərini iddia edənləri görmədinmi?” (Ən-Nisə: 60)**

Allah təala başqa bir ayədə buyurur:

﴿ إِنَّ ٱلَّذِينَ فَرَّقُوا۟ دِينَهُمْ وَكَانُوا۟ شِيَعًا لَّسْتَ مِنْهُمْ فِى شَىْءٍ ﴾ [الأنعام:159]

**“Dinlərini parçalayıb firqə-firqə olanlarla sənin heç bir əlaqən yoxdur. Onların işi Allaha aiddir.” (Əl-Ənam: 159)**

İbn Abbas (Allah onlardan razı olsun) bu ayə haqqında belə demişdir:

﴿ يَوْمَ تَبْيَضُّ وُجُوهٌ وَتَسْوَدُّ وُجُوهٌ ﴾ [آل عمران:106]

**“O gün (neçə-neçə) üzlər ağaracaq, (neçə-neçə) üzlər də qaralacaqdır.” (Ali-İmran: 106).**

İbn Abbas (Allah ondan razı olsun) Uca olan Allahın bu ayəsi haqqında belə demişdir: “Üzləri ağaranlar əhli-sünnə və camaat əhli olacaq, üzləri qaralanlar isə bidət və ixtilaf əhli olacaqdır.”[31]

Abdullah bin Amrdan (Allah onlardan razı olsun) rəvayət olunan hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) demişdir: “*İsrail oğullarına gələnlər mənim ümmətimə də gələcəkdir. Ayaqqabının ayaqqabıya bənzərliyi kimi eyni halda olacaqlar. (Əgər israil oğullarından bir kimsə açıq şəkildə anasına yaxınlaşarsa, (onlara oxşamaq üçün) onu mənim ümmətimdə də edən olar). İsrail oğulları yetmiş iki firqəyə ayrıldılar. Mənim ümmətim isə yetmiş*

---

[31] Təfsir əl-Bəğavi (1/339). İbn Kəsir (2/92). Təfsir Kurtubi (4/1679). Təfsir İbn Əbi Hatim (3/729).

*üç firqəyə ayrılacaqdır. Bir firqədən başqa hamısı cəhənnəmə daxil olacaqdır. Səhabələr soruşdu: "Ey Allahın rəsulu! O bir firqə kimdir?" Buyurdu: "Mənim və əshabımın yolu üzərində olanlardır".*[32]

Müəllif özü buyurmuşdur: "Mömin kimsə Allahla qarşılaşacağı gün üçün doğru danışanların doğrusunun [33] kəlamına, xüsusən də, bu məqamda "Mənim və əshabımın yolu üzərində olanlar" sözlərinə diqqət yetirsin. Ey bu kəlamdan razı qalan diri qəlblər! (Yəni, Peyğəmbərin bu kəlamından yalnız diri qəlb sahibləri ibrət alar və razı qalar).

Əhməd bin Hənbəl və Əbu Davud, Muaviyədən (Allah ondan razı olsun) rəvayət etdikləri hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) buyurmuşdur: *"Ümmətimdən toplumlar çıxacaq, zəlalətlər onların içlərinə (damarlarına) quduz xəstəliyi sahibinin bədəninə yayıldığı kimi yayılacaqdır. Bu xəstəliyin (bədəndə) daxil olmadığı nə bir oynaq, nə də bir damar qalar."* [34]

Necə ki, Allahın Elçisinin (Allahın salamı və xeyir-duası onun üzərinə olsun): "İslamda olduğu halda, yenə də cahiliyyət adətlərinə can atanlar" kəlməsi əvvəldə keçmişdir.

---

[32] Tirmizi "Əbvəbu əl-İman" (2641). Hakim "Mustədrək" (444). Tabarani (14646). Nəsirəddin Albani "Sahih əl-Cəmi"də hədisə həsən demişdir. Mötərizə içində olan cümləyə isə zəif demişdir. Sonra "əs-Silsilə əs-Sahihə" (1348) kitabında səhih demişdir. "Tirmizinin Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət etdiyi başqa bir hədisdə "Hamısı cəhənnəmə daxil olacaq ləfzi yoxdur" (2640). Tirmizi bu hədisə səhih demişdir.

[33] Doğru danışanların doğrusu Muhəmməd Peyğəmbərdir (Allahın salamı və xeyir-duası onun üzərinə olsun).

[34] Əhməd Bin Hənbəl "Musnəd" (16937), (4/102). Əbu Davud "Kitab əs-Sünnə" (4597). Hakim "Kitab əl-Elm" (443). Hakim səhih deyib, Zəhəbi də ona müvafiq olub.

## 8-Cİ FƏSİL: BİDƏTİN (DİNDƏ YENİLİYİN) BÖYÜK GÜNAHLARDAN DAHA ŞİDDƏTLİ OLMASI

Allah təalə buyurur:

﴿ إِنَّ ٱللَّهَ لَا يَغْفِرُ أَن يُشْرَكَ بِهِۦ وَيَغْفِرُ مَا دُونَ ذَٰلِكَ لِمَن يَشَآءُ ﴾ [النساء:116]

**“Şübhəsiz ki, Allah ona şərik qoşmağı bağışlamayacaq. Bundan başqa olan günahları istədiyi kimsə üçün bağışlayacaqdır” (Ən-Nisə: 116).**

﴿ فَمَنْ أَظْلَمُ مِمَّنِ ٱفْتَرَىٰ عَلَى ٱللَّهِ كَذِبًا لِّيُضِلَّ ٱلنَّاسَ بِغَيْرِ عِلْمٍ ﴾ [الأنعام:144]

**“Elmsiz olaraq insanları azdırmaq üçün Allaha qarşı yalan uyduran kimsədən daha zalım kim ola bilər?” (Əl-Ənam: 144).**

﴿ لِيَحْمِلُوٓاْ أَوْزَارَهُمْ كَامِلَةً يَوْمَ ٱلْقِيَٰمَةِ ۙ وَمِنْ أَوْزَارِ ٱلَّذِينَ يُضِلُّونَهُم بِغَيْرِ عِلْمٍ ۗ أَلَا سَآءَ مَا يَزِرُونَ ﴾ [النحل:25]

**“Qoy onlar Qiyamət günü öz günahlarının hamısını və nadanlıqları üzündən azdırdıqları kəslərin günahlarının bir qismini daşısınlar. Bax gör, daşıyacaqları (yük) necə də pisdir.”! (Ən-Nəhl: 25).**

Səhih bir hədisdə Peyğəmbər (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) xəvariclər haqqında demişdir: *“Onlarla harada qarşılaşsanız onları öldürün”.*[35]

Başqa bir hədisdə Peyğəmbər (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə demişdir: *“Əgər onlara (xəvariclər) yetişsəydim Ad qövmünün qətli kimi, onları qətl edərdim”.* [36]

Peyğəmbər (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) başqa bir hədisdə namaz qılan zalım, fasiq başçıları qətl etməyi qadağan etmişdir.[37]

Cərir bin Abdullahın (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə demişdir: “Bir kişi kasıb camaata sədəqə verdi. Sonra insanlar da onun ardınca sədəqə verməyə başladılar. (Bu zaman) Allah Rəsulu (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) bunu gördükdə dedi: *“Kim İslamda gözəl bir iz açarsa, ona savab yazılar. Ondan sonra o əməli edənlərin savablarından heç nə əskilmədən ona savab*

---

[35] Buxari “Kitab əl-Mənəqib” (3611). Muslim “Kitab əz-Zəkat” (1066).
[36] Buxari “Kitab Əhədis əl-Ənbiya” (3344). Muslim Kitab əz-Zəkat” (1064).
[37] Ola bilər müəllif Muslimdə (1854) Ummu Sələmənin hədisinə işarə edibdir.

*yazılar. Kim də İslamda pis bir iz açarsa, ona günah yazılar. Ondan o pis əməli edənlərin günahlarından heç nə əskilmədən ona günah yazılar.”* [38]

Bu hədisin oxşarı olan Əbu Hureyradan (Allah ondan razı olsun) gələn ləfzdə Peyğəmbər (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) buyurmuşdur: *“Kim haqq yola dəvət edərsə, ona tabe olanların savabları qədər savab yazılar. Kim də zəlalətə çağırarsa, ona tabe olanların günahları qədər günah yazılar.”* [39]

[38] Muslim “Kitab əz-Zəkat” (1017).
[39] Muslim “Kitab əl-Elm” (2674).

## 9-CU FƏSİL: BİDƏT SAHİBİNİN TÖVBƏYƏ MÜVƏFFƏQ OLMAMASI

Ənəsin (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə Peyğəmbər (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) demişdir: *"Allah hər bir bidət sahibini tövbəyə müvəffəq etmir."* [40] Bu hədis Həsənin[41] rəvayət etdiyi mürsəl hədislərdəndir.

İbn Vəddah öz kitabında Əyyubdan[42] nəql edərək belə demişdir: "Bir dəfə bizim yanımızda xəvariclərin rəyində olan bir kişi var idi. Sonra o, həmin rəyi tərk etdi. Mən Muhəmməd bin Sirinin[43] yanına gələrək ona dedim: "Eşitdinmi filankəs rəyini tərk edib?" O isə belə dedi: "Bax, gör sonra hara yönələcək. Sonradan baş verən hadisələr əvvəldə olan hadisələrdən daha şiddətli olacaqdır. İslamdan oxun öz hədəfindən çıxdığı kimi çıxacaqlar, sonra isə geri dönməyəcəklər".[44]

Əhməd bin Hənbəldən yuxarıda keçən hədisin mənası haqqında soruşduqda, o belə demişdir: "Tövbə etməyə müvəffəq olmayacaqlar."[45]

---

[40] Təbərani "əl-Əvsat" (4214). Heysəmi "Mucəmmə əz-Zəvəid" (17457), (10/189). Munziri "Tərğib və Tərhib" (87), (1/45) həsəndir. Suyuti "əl-Cəmi əs-Sağir" (1176) səhihdir. Nəsirəddin Albani "Səhih əl-Cəmi" (1699) səhihdir. İbn Vəddah "əl-Bidə və ən-Nəhiy anhə" (150), (səh: 106).

[41] Həsən əl-Bəsri tabiinlərdən olmuşdur. "Mursəl" hədis elmində hökmü zəif mənasında işlənən istilahdır.

[42] Əyyub əs-Sixtiyəni, tabiinlərdən olmuşdur.

[43] Muhəmməd bin Sirin, tabiinlərdən olmuşdur.

[44] İbn Vəddah "əl-Bidə və ən-Nəhiy anhə" (147), (səh: 108). Əsərin isnadı səhihdir.

[45] Muhəmməd əs-Səfərini "Ləvami əl-Ənvar" 1/400

## 10-CU FƏSİL: “EY KİTAB ƏHLİ!  NƏ ÜÇÜN İBRAHİM BARƏSİNDƏ HÖCƏTLƏŞİRSİNİZ?” – “O, (İBRAHİM) ALLAHA ŞƏRİK QOŞANLARDAN DEYİLDİ.”

Allah təalə buyurub:

﴿ وَمَن يَرْغَبُ عَن مِّلَّةِ إِبْرَٰهِـۧمَ إِلَّا مَن سَفِهَ نَفْسَهُۥ ۚ وَلَقَدِ ٱصْطَفَيْنَٰهُ فِى ٱلدُّنْيَا ۖ وَإِنَّهُۥ فِى ٱلْـَٔاخِرَةِ لَمِنَ ٱلصَّٰلِحِينَ ﴾ [البقرة:130]

**“Səfeh olanlardan başqa kim İbrahimin dinindən üz çevirər? Biz onu dünyada (elçi) seçdik. Şübhəsiz ki, o, axirətdə də əməlisalehlərdən olacaqdır.” (Əl-Bəqərə: 130).**

Artıq xəvariclərlə əlaqəli hədis əvvəlki fəsildə keçmişdir.[46]

Səhih bir hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə demişdir: *“Filankəsin*[47] *atasının ailəsi mənim yaxın dostlarım deyildir. Həqiqətən, mənim yaxın dostlarım ancaq müttəqilərdir”.*[48]

Həmçinin, Ənəsdən (Allah ondan razı olsun) rəvayət olunan hədisdə Allah Elçisinə (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) bəzi səhabələrin belə demələri haqqında xəbər verildi. Onlardan biri demişdir ki, mən ət yemirəm. O biri demişdir ki, mən yatmıram (gecəni oyaq qalaraq ibadətlə keçirirəm). Digəri demişdir ki, mən evlənmirəm. Bir başqası isə demişdir ki, mən oruc tuturam və iftar etmirəm. (Bunu eşitdikdə) Peyğəmbər (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) onlara belə dedi: *“Lakin mən isə gecəni yatıram da, oyaq da qalıram, oruc da tuturam, iftar da edirəm və həmçinin, evlənirəm də, ət də yeyirəm. Kim mənim sünnətimdən üz çevirərsə məndən deyildir”.*[49] Fikirləş, ey insan! Bir neçə səhabə özlərini ibadət üçün hər şeydən təcrid etmək istədikdə, onlara sərt sözlər deyildi. Etdikləri əməllər sünnədən üz çevirmək kimi adlandırıldı. Belə olduğu təqdirdə, bu

---

[46] “Oxun öz yayından çıxdığı kimi onlar da (xəvariclər) dindən çıxacaqlar, sonra isə geri dönməyəcəklər”

[47] Hədisdə ad qeyd olunmamışdır.

[48] Müttəqi - Allahdan qorxan deməkdir. Buxari və Müslimin hədisində: “Filankəsin atasının ailəsi mənim yaxın dostlarım deyil, mənim yaxın dostlarım ancaq Allah və saleh möminlərdir.” kimi keçir. Buxari “Kitab əl-Ədəb” (5990). Müslim “Kitab əl-İman” (215). Əhməd bin Hənbəl “Musnəd” (1/133), isnadı həsəndir. Əbu Davud “Kitab əl-Fitən və əl-Mələmih” (4242). Hakim “Müstədrək” (8441), səhih demişdir.

[49] Bu hədis Buxaridə “Kitab ən-Nigah” (5063), Müslimdə  “Kitab ən-Nigah” (1401) hədislərində oxşar ləfzlərlə qeyd olunmuşdur.

əməllərin bidət olmasından başqa bir şeymi düşünürsən?! Bəs səhabədən başqasının bu əməli etməsinə nə deyirsən?!

## 11-Cİ FƏSİL. ALLAH TƏALƏ BUYURUR: “SƏN ÜZÜNÜ ALLAHIN YARATDIĞI HƏNİF OLAN DİNƏ YÖNƏLT. ALLAH İNSANLARI ÖZ FİTRƏTİ (İSLAM) ÜZƏRİNDƏ YARATMIŞDIR. ALLAHIN YARATDIĞINI (TÖVHİD DİNİ) DƏYİŞDİRMƏK OLMAZ. DOĞRU DİN BUDUR, LAKİN İNSANLARIN ƏKSƏRİYYƏTİ BİLMİR.”

Allah təalə buyurur:

﴿ وَوَصَّىٰ بِهَآ إِبۡرَٰهِـۧمُ بَنِيهِ وَيَعۡقُوبُ يَٰبَنِيَّ إِنَّ ٱللَّهَ ٱصۡطَفَىٰ لَكُمُ ٱلدِّينَ فَلَا تَمُوتُنَّ إِلَّا وَأَنتُم مُّسۡلِمُونَ ﴾ [البقرة:132]

**“İbrahim də, Yaqub da bunu oğullarına vəsiyyət etdilər: “Ey oğullarım! Həqiqətən, Allah bu dini sizin üçün seçmişdir. Siz də ancaq müsəlman olaraq ölməlisiniz!” (Əl-Bəqərə: 132).**

Allah təalə buyurur:

﴿ ثُمَّ أَوۡحَيۡنَآ إِلَيۡكَ أَنِ ٱتَّبِعۡ مِلَّةَ إِبۡرَٰهِيمَ حَنِيفٗاۖ وَمَا كَانَ مِنَ ٱلۡمُشۡرِكِينَ ﴾ [النحل:123]

**“Sonra sənə vəhy etdik: “Hənif İbrahim dininə tabe ol. O, müşriklərdən deyildi”. (Ən-Nəhl: 123).**

Abdullah bin Məsuddan (Allah ondan razı olsun) rəvayət olunan hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə demişdir: “*Hər Peyğəmbərin digər Peyğəmbərlərdən bir yaxını var və onlardan mənə yaxın olanı Rəbbimin xəlili (dostu) və (Peyğəmbərlərin atası) atam İbrahimdir.*” Sonra bu ayəni oxudu: **“Həqiqətən, insanlardan İbrahimə ən yaxın olanı, onun ardınca gedənlər, bu Peyğəmbər (Muhəmməd) və iman gətirənlərdir. Allah möminlərin Himayədarıdır (dostudur).” (Ali-imran: 68).** [50]

Əbu Hureyradan rəvayət olunan hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə demişdir: *“Şübhəsiz ki, Allah sizin nə bədənlərinizə, nə də mallarınıza baxar. Lakin O sizin qəlblərinizə və əməllərinizə baxar”.*[51]

---

[50] Tirmizi “Əbvəb ət-Təfsir” (2995). Hakim “Mustədrək” (2/320) səhih demişdir. Əhməd bin Hənbəl “Musnəd” (1/400, 429). Nəsirəddin Albani “Əl-Mişkət” (5769), Əhməd Şakir “Umdə ət-Təfsir” (1/381) əsərlərində səhih demişdir.

[51] Müslim “Kitab əl-Birr və əs-Silə” (2564). Bu hədis Müslimdə iki ləfzdə keçir. Müəllif iki hədisi cəm edərək məna baxımından qeyd etmişdir. Müslimdə keçən ləfz belədir: “Həqiqətən, Allah sizin nə bədənlərinizə, nə də surətlərinizə baxar. Lakin O, sizin qəlblərinizə və əməllərinizə baxar”.

Abdullah bin Məsuddan (Allah ondan razı olsun) rəvayət olunan hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) demişdir: *"Mən sizdən öncə hovuzun*[52] *kənarına çatacam. Orada ümmətimdən olan kişilər mənə tərəf gətiriləcəklər. Hətta, mən onları qəbul etmək üçün onlara yönəldikdə, məndən çəkindiriləcəklər. Mən deyəcəm: "Ey Rəbbim ! Onlar mənim əshabımdır." Mənə deyiləcək: "Onların səndən sonra (dində) nə yeniliklər çıxartdığını bilmirsən."* [53]

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət olunan hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə demişdir: *"Mən qardaşlarımızı görməyi çox arzu etdim." Səhabələr dedi: "Ey Allahın Elçisi! Biz sənin qardaşların deyilikmi?! O, dedi: "Siz mənim əshabımsınız, qardaşlarımız isə hələ gəlməyiblər". Səhabələr dedi: "Ey Allahın Elçisi! Ümmətdən hələ gəlməyən kimsəni necə tanıyacaqsan?" O, dedi: "Görsəniz ki, bir kişinin qapqara atların arasında alnı və ayaqları parlayan ağ xallı atı var, sizcə o, öz atını tanımazmı? Səhabələr dedilər ki, əlbəttə, tanıyar. Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) dedi: "Həqiqətən, onlar dəstəmazdan üzləri, əlləri və ayaqları parlayan halda gələcəklər. Mən onlardan əvvəl hovuzun kənarına çatacam. Qiyamət günü bir dəstə kişi mənim hovuzumun kənarından (sahibindən qaçıb) itmiş dəvənin qovulduğu kimi qovulacaqlar. Mən onlara səslənərək "haydı gəlin!" deyəcəm." Mənə deyiləcək: "Onlar səndən sonra dini dəyişdirdilər." Mən deyəcəm: "Qoy uzaq olsunlar, uzaq".*[54]

Buxarinin rəvayət etdiyi hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) belə demişdir: *"Mən (hovuzun kənarında) durduğum zaman bir toplum camaat gördüm. Mən onları tanıdığımda, həmin vaxt mənimlə onlar arasından bir adam çıxaraq onlara "Gəlin" dedi. Mən dedim: "(Bunları) hara (aparırsan)?" Dedi: "Vallahi, cəhənnəmə." "Onların günahı nədir?" deyə soruşdum. Dedi: "Onlar səndən sonra ayaqlarını çevirib (dinə) arxa çevirərək mürtəd*[55] *oldular." Sonra yenə (hovuzun kənarında) bir toplum camaat olacaqdır. Eyni bu hədis kimi yenə xəbər verdi, sonda dedi: "Mən bu camaatlardan az bir qismi istisna olmaqla, öz başına çobansız qalaraq itmiş, sonra isə yolunu tapmış dəvələr kimi (yəni, az sayda) xilas olacağını güman etmirəm".*[56]

---

[52] Qiyamət günü Peyğəmbərin (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) Kövsər adlı hovuzu.
[53] Buxari "Kitab əl-Fitən" (7049). Muslim "Kitab əl-Fədail" (2297).
[54] Muslim "Kitab ət-Tahara" (249).
[55] Dindən üz çevirən.
[56] Buxari "Kitab ər-Riqaq" (6587).

İbn Abbasın (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə Peyğəmbər (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) buyurmuşdur: *"Mən də Saleh qulun İsa (Allahın ona salamı olsun) dediyi kimi deyirəm. Allah təalə buyurur: "Mən onlara ancaq Sənin mənə əmr etdiyini: "Mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha ibadət edin!"– demişəm. Nə qədər ki, onların arasında idim, mən onlara şahid idim. Sən məni (onların arasından) götürdükdən sonra isə onlara nəzarət edən Özün oldun. Sən hər şeyə Şahidsən." (Əl-Maidə: 117)".*[57]

Buxari və Müslimin rəvayət etdiyi hədisdə Peyğəmbər (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) buyurmuşdur: *"Elə bir doğulmuş körpə yoxdur ki, yalnız fitrət (İslam) üzərində doğulmasın. Sonra valideynləri onu ya yəhudi, ya xristian, ya da məcusi edir. Necə ki, bir heyvanın heyvanı (öz balasını) qüsursuz, sapsağlam doğduğu kimi, belə olan heyvanda heç görmüsünüzmü kəsilmiş orqan olsun? Hətta siz onu kəsməyənə və ya qopartmayana qədər."*. Sonra isə Əbu Hureyra (Allah ondan razı olsun) bu ayəni oxudu: *"Allahın insanlara – xəlq etdiyi (şüurlu) məxluq kimi verdiyi fitrət (islam) budur." (Rum: 30)".*[58]

Hüzeyfənin (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə demişdir: "İnsanlar Allah Elçisindən (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) xeyir haqında soruşardılar, mən isə onun mənə yetişməsindən qorxduğum üçün, şər haqqında soruşardım. *(Bir gün) dedim: "Ey Allahın Elçisi! Həqiqətən, biz cəhalət və şər içində idik, Allah bizə bu xeyiri (İslamı) gətirdi. Bu xeyirdən sonra şər olacaqmı?" Buyurdu: "Bəli olacaq." Dedim: "Bəs bu şərdən sonra xeyir olacaqmı?" Buyurdu: "Bəli, ancaq bu xeyirin içində qaranlıq duman olacaqdır." Soruşdum: "O qaranlıq duman nədir?" Buyurdu: "Mənim sünnətimdən və yolumdan başqa yolların və adətlərin arxasınca gedən toplumlar olacaqdır. Onlardan bəzisini (xeyir üzərində olanları) tanıyacaqsan, bəzisini isə (şər üzərində olanları) inkar edəcəksən." Dedim: "Bu xeyirdən sonra yenə şər olacaqmı?" Buyurdu: "Bəli, kor-koranə fitnələr və cəhənnəm qapılarına çağıran dəvətçilər olacaq. Kim onların dəvətinə qarşılıq verərsə, onu cəhənnəmə atacaqlar." Dedim: "Ey Allahın Rəsulu! Onları bizə vəsf et." Dedi: "Bizim cinsimizdən və bizim dilimizdə danışan toplumlar olacaqdır." Soruşdum: "Ey Allahın Elçisi! Mən o zamana çataramsa, mənə nəyi əmr edərsən?" Buyurdu: "Müsəlmanların camaatına və onların imamına tabe ol." Dedim: "Əgər onların camaatı və imamı olmasa nə edim?"*

---

[57] Buxari Kitabu Raqaiq (4625,4626). Muslim Kitabul Cənnət və Sifətu Nəimuhə və Əhluhə (2860).

[58] Buxari Kitabul Cənəiz (1358, 1359). Muslim Kitabul Qədər (2658).

*Dedi: "O firqələrin hamısından uzaq ol, bir ağacın kötüyünü dişləyərək, ölüm sənə yetişənə qədər o hal üzərində qal."*[59]

*Müslimin əlavə etdiyi hədisdə*[60] *Hüzeyfə (Allah ondan razı olsun) yenə Peyğəmbərdən (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) "Sonra nə olacaq?" deyə soruşdu. Buyurdu: "Sonra dəccal çıxacaq, onunla birlikdə bir nəhr*[61] *və bir od olacaq, onun oduna düşənə savab yazılacaq və günahı silinəcək, nəhrinə girənə isə günah yazılacaq və savabı silinəcəkdir. Sonra soruşdum: "Bəs sonra nə baş verəcək, ey Allahın Elçisi!" Buyurdu: "Sonra Qiyamət qopacaqdır."*[62]

Əbu Aliyə[63] belə demişdir: "İslamı (düzgün) öyrənin, onu öyrəndikdən sonra ondan üz çevirməyin. Doğru yolda möhkəm olun. O yol İslamdır. Doğru yoldan sağa və sola sapmayın, Peyğəmbərinizin (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) yolunda möhkəm olun və bu zəlalətlərin (hamısından) uzaq olun."[64]

Əbu Aliyənin (Allah ona rəhmət etsin) bu kəlamına diqqət yetir, bu onun İslama nə qədər dəyər verməsi və öz zamanını daha yaxşı tanıması idi. O, öz zamanında zəlalətlərdən çəkindirərək bildirirdi ki, kim o zəlalətlərə tabe olarsa İslamdan üz çevirmiş olar, İslamın təfsiri də Peyğəmbərin (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) sünnəti ilə olur. Onun (əsas) qorxusu (öz zamanında yaşayan) tabiinlərin və alimlərin Allahın Kitabından və Peyğəmbərinin (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) sünnətindən kənara çıxma qorxusu idi.

Allahın bu ayələrini oxuduqda mənası sənə bəyan olacaqdır: **"Rəbbi ona (İbrahimə): "Təslim ol!"– dedikdə, o: "Aləmlərin Rəbbinə təslim oldum!"– demişdi." (Əl-Bəqərə: 131).** Növbəti ayədə buyurur: **"İbrahim də, Yaqub da bunu oğullarına vəsiyyət etdilər: "Ey oğullarım! Həqiqətən, Allah bu dini sizin üçün seçmişdir. Siz də ancaq müsəlman olaraq ölməlisiniz!" (Əl-Bəqərə:**

---

[59] Buxari "Kitab əl-Mənaqib" (3066) və "Kitab əl-Fitən" (7084). Muslim "Kitab əl-İmarat" (1847). Hədisdə keçən: "Kor-koranə fitnələr" sözü Əhməd bin Hənbəlin "Musnəd" (23282) kitabında varid olunmuşdur.
[60] Müəllif Müslimin əlavə etdiyini qeyd edib, lakin bu əlavə Müslimdə yox, Əbu Davudun "Kitab əl-Fitən və əl-Mələhim" (4244) kitabında və Əhməd bin Hənbəlin "Musnəd" (5/403) kitabında varid olmuşdur.
[61] Axar çay
[62] Əbu Davud "Sünən" (4244). Əhməd bin Hənbəl "Musnəd" (23429). Nasirəddin Albani "Mişkət əl-Məsabih" (5323). İsnadı səhihdir.
[63] Rufi bin Mehran ər-Riyəhi, tabiinlərdən olmuşdur (Allah ona rəhmət etsin).
[64] Əl-Mərvəzi "Sünnət" (27). Əbu Nəim "Hilyətu əl-Əvliyə" (2/218). Abdurazzaq "Musannəf" (11/367). İsnadı səhihdir.

**132).** Başqa bir ayədə buyurur: **“Səfeh olanlardan başqa kim İbrahimin dinindən üz çevirər?” (Əl-Bəqərə: 130).**

Bu əzəmətli üsullar (ayələr) o (Əbu Aliyənin) üsulların əslinə oxşayır, insanlar isə bundan xəbərsizdir. Bunları öyrənməklə (yəni Əbu Aliyənin kəlamını) bu fəsildə olan hədislərin mənaları və buna oxşar hədislərin mənaları bəyan olacaqdır. Ancaq insan bunları və bunun oxşarlarını oxuyar (əməl etmədən) və öz nəfsində rahat olar, bununla heç bir şeyə nail olmaz. Elə zənn edər ki, bunlar (ona yox) başqalarına aiddir, onlar da həlak olanlardır. Uca Allah buyurur: **“Yaxud onlar Allahın hiyləsindən ehtiyat etmirdilərmi? Allahın hiyləsindən yalnız ziyana uğrayanlar ehtiyat etməzlər.” (Əl-Əraf: 99).**

İbn Məsudun (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə demişdir. Bir gün Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) bizə yerdə bir xətt çəkdi, sonra isə belə dedi: *“Bu Allahın yoludur”. Sonra onun sağından və solundan xətlər çəkərək belə dedi: “Bunlar isə başqa yollardır, hər bir yolun üzərində şeytan olacaq və özünə tərəf çağıracaqdır”. Sonra bu ayəni oxudu:* ***“Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki, (o yollar) sizi Allahın yolundan uzaqlaşdırar. Allah bunları sizə tövsiyə etmişdir ki, bəlkə (pis əməllərdən) çəkinəsiniz”. (Əl-Ənam:153).***[65]

[65] Əhməd bin Hənbəl “Musnəd” (1/435). (4142). Nəsəi “Sünən əl-Kubra” (6/343) (11174). Dərimi “Sünən”(202). Hakim “Mustədrək” (3241) Səhih demişdir. İbn Hibban “Kitab Səhih İbn Hibban” (6) Səhih demişdir.

## 12-Cİ FƏSİL. İSLAMIN QƏRİBLİYİ VƏ QƏRİBLƏRİN FƏZİLƏTİ

Allah təalə buyurur:

﴿ فَلَوْلَا كَانَ مِنَ ٱلْقُرُونِ مِن قَبْلِكُمْ أُوْلُوا۟ بَقِيَّةٍ يَنْهَوْنَ عَنِ ٱلْفَسَادِ فِى ٱلْأَرْضِ إِلَّا قَلِيلًا مِّمَّنْ أَنجَيْنَا مِنْهُمْ ﴾ [هود:116]

**“Heç olmasa, sizdən əvvəlki nəsillərdə yer üzündə fitnə-fəsad törətməyi qadağan edən ağıl və hikmət sahibləri olaydı. Onlardan yalnız xilas etdiyimiz az bir qismi belə idi.” (Hud: 116).**

Əbu Hureyradan (Allah ondan razı olsun) rəvayət olunan hədisdə Allah Elçisi (Allahın salamı və xeyir duası onun üzərinə olsun) buyurmuşdur: *“İslam qərib olaraq başladı və başladığı kimi də qərib olaraq qayıdacaqdır. Nə xoş halına o qəriblərin!”.*[66]

Əhmədin İbn Məsuddan (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə: “Qəriblər kimlərdir” deyə soruşulduqda, Peyğəmbər (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) demişdir: *“Öz vətənindən, əhlindən və yaxınlarından uzaqda olanlardır”.*[67]

İbn Məsudun (Allah ondan razı olsun) Peyğəmbərdən (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) gələn başqa rəvayətində belə demişdir: *“Qəriblər o kəslərdir ki, insanlar fəsad törətdikdə onlar islah edərlər”.*[68]

Əhmədin, Sad bin Vaqqasdan (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) demişdir: *“İnsanlar fəsad etdiyi zaman (onları islah etdikləri üçün) Qiyamət günü nə xoş halına o qəriblərin”.*[69]

---

[66] Müslim “Kitab əl-İman” (145).
[67] Əhməd bin Hənbəl “Musnəd” (3784), (1/398). İsnadı Muslimin şərtinə görə səhihdir. Əhməd Şəkir Musnədin təhqiqində (5/296) isnadına səhih demişdir. İbn Məcə “Kitab əl-Fitən” (3988), isnadı səhihdir. Əl-Bəğavi “Şərh əs-Sunnə”də (1/118) isnadına səhih demişdir.
[68] Əhməd bin Hənbəl “Musnəd” (16249). Abdullah bin Əhməd “Zəvaid Musnəd” (16690), (4/74). Təbərani “əl-Kəbir” (5867), (6/164). Nasirəddin Albani “Silsilətu əs-Səhihə” (1273), isndaına səhih demişdir.
[69] Əhməd bin Hənbəl “Musnəd” (1607), Əhməd Şəkir “Musnəddə” (3/96) isnadına səhih demişdir. Heysəmi “Məcmu əz-Zəvaiddə” (7/277, 280) Əhmədin və Əbu Yələnin rəvayət etdiyi raviləri səhihdir.

Tirmizinin Kəsir bin Abdullahın atasından, o da babasından rəvayət etdiyi hədisdə Peyğəmbər (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) demişdir: *"İnsanlar fəsad etdiyi zaman mənim sünnətim ilə onları islah edən qəriblərin nə xoş halına".*[70]

Əbu Umeyyə (Allah ondan razı olsun) rəvayət edərək deyir ki, bir gün Əbə Sələbə əl-Xuşənidən (Allah ondan razı olsun) bu ayə barəsində nə deyirsən deyə soruşdum: **"Ey iman gətirənlər! Öz qeydinizə qalın! Siz doğru yolda olsanız, (haqq yoldan) azmışlar sizə zərər yetirə bilməzlər. Hamınızın dönüşü Allaha olacaq və O, etdiyiniz əməllər barədə sizə xəbər verəcəkdir." (Əl-Maidə: 105).** O, isə dedi: "Vallahi, sən bu ayə haqqında xəbərdar olandan soruşdun. Mən Allah Elçisindən (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) bu ayə haqqında soruşmuşdum, o isə belə demişdir: *"Yaxşılığı əmr edin və pislikdən çəkindirin. Əgər görsəniz ki, paxıllıq itaətə çevrilib, nəfsi istəklərin arxasınca düşülüb, dünya dinə təsir edib və hər bir rəy sahibi də öz rəyini bəyənib, o zaman sən öz nəfsini qoru və belə avamları tərk et. Həqiqətən, sizin ardınızdan səbr olunası günlər olacaq və o günlərdə səbr edən kəs közü ovcunda tutmuş kimi olacaqdır. O günlərdə bir xeyir əməl edənə sizdən əlli kişinin etdiyi əməllərin əcri veriləcəkdir."* Biz (səhabələr) dedik ki: *"Ey Allahın Elçisi, əlli kişinin əcri bizdənmi, yoxsa onların özlərindənmi olacaqdır?"* O dedi: *"Sizdən olacaqdır."*[71] Əbu Davud və Tirmizi rəvayət etmişdir.

İbn Vəddah, əvvəlki hədisin mənasına oxşar İbn Ömərin (Allah ondan razı olsun) hədisini rəvayət etmişdir. Bu hədisin ləfzi belədir: *"Həqiqətən, sizdən sonra səbr ediləsi günlər vardır. O günlərdə bu gün sizin kimi dinini möhkəm tutan üçün sizdən əlli kişinin əcri qədər əcr veriləcəkdir."* Soruşuldu: *"Ey Allahın Elçisi! Onlardan əlli kişi?"* Dedi: *"Xeyr, sizdən."*[72]

---

[70] Tirmizi "Əbvəb əl-İman" (2630), isnadına həsən (yaxşı) demişdir. İbn Həcər Asqalani "Mişkət əl-Məsabih" (1/133), həsən dedmişdir. İbn əl-Arabi "Aridətu əl-Əhvəzi" (5/307), həsəndir. İbn Bəz "Məcmu Fətava" (3/158), səhihdir.

[71] Əbu Davud "Kitab əl-Mələhim" (4341). Tirmizi "Əbvəb ət-Təfsir" (3058), isnadı həsəndir. İbn Məcə "Kitab əl-Fitən" (4014), həsəndir. İbn Həcər əl-Əsqələni "Mişkət əl-Məsəbih" (4/486), isnadı həsəndir. İbn Bəz "əl-Fəvəid əl-Elmiyyə min durus əl-Bəziyə" (8/31), isnadı həsəndir. Şueyb Arnavut "Sünən Əbu Davudun" (4341) təhqiqində həsən demişdir. Tahavi "Şərh Muşkil Əsər" (3/212), isnadı səhihdir. İbn Hibban "Səhih ibn Hibban" (1850), Hakim "Mustədrək" (4/322) və Zəhəbi "əl-Kəəşif", isnadı səhihdir.

[72] İbn Vəddah "Kitab əl-Bidə və ən-Nəhy Anhə" (205). Təbərani "Mucəm əl-Kəbir" (17/117), (289), isnadı zəifdir.

Sonra İbn Vəddah Muhəmməd bin Səiddən, o da Əsəddən, o da Sufyan bin Uyeynədən, o da Əsləm əl-Bəsridən, o da Həsənin qardaşı Səiddən rəvayət edərək belə demişdir: "Sufyandan bu hədisin Peyğəmbərdən (Allahın salamı və xeyir-duası olsun) rəvayət olunduğunu soruşdum". *"Bəli"* deyə cavab verdi. Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) buyurmuşdur: *"Bu gün siz Rəbbinizdən olan bir elm üzərindəsiniz, yaxşılığı əmr edib pislikdən çəkindirirsiniz və Allah yolunda da cihad edirsiniz. Sizdə bu iki sərxoşluq halı - cahillik sərxoşluğu və dünya sevgisi sərxoşluğu baş verməmişdir. Lakin insanlar isə bundan üz döndərəcəklər. Yaxşılığı əmr edib, pislikdən çəkindirməyəcək və Allah yolunda cihad etməyəcəklər. Sizdə o iki sərxoşluq halı üzə çıxacaqdır. O gündə Kitab və Sünnədən tutana əlli kişinin əcri veriləcəkdir." Peyğəmbərdən (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) soruşuldu: "O əlli kişi onlardandırmı?" Buyurdu: "Xeyr, sizdəndir."*[73]

Əl-Məafirinin[74] rəvayət etdiyi hədisdə Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) buyurmuşdur: *"Allahın kitabı tərk olunduqda ondan tutan və Peyğəmbərin (Allahın salamı və xeyir-dusı onun üzərinə olsun) sünnəti unudulduqda onunla əməl edən qəriblərin nə xoş halına!"*.[75]

---

[73] İbn Vəddah "əl-Bidə və ən-Nəhy Anhə" (206). Əbu Nəim "əl-Hilyətu əl-Əvliyə" (8/49), isnadı zəifdir.
[74] Bəkr bin Amr Əl-Məafiri ətbəu tabiinlərdən olmuşdur.
[75] İbn Vəddah "Əl-Bidə və Ən-Nəhy Anhə" (185), isnadı zəifdir.

## 13-CÜ FƏSİL. BİDƏTDƏN ÇƏKİNMƏK

İrbad bin Səriyə (Allah ondan razı olsun) rəvayət etdiyi hədisdə demişdir: "Bir gün Allah Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) bizə gözəl bir vaaz etdi, onun təsirindən qəlblər titrədi, gözlər yaşardı. Dedik: "Ey Allahın Elçisi! Bu sanki vida öyüdünə oxşayır, elə isə bizə bir nəsihət et." Buyurdu: *"Sizə Allah Əzzə və Cəllədən qorxmağı, sizin üzərinizə bir qul belə təyin olunub başçılıq etsə, onu dinləməyi və tabe olmağı tövsiyə edirəm. Sizlərdən kim yaşayacaq olarsa, bir çox ixtilaflar görəcəkdir. Məndən sonra mənim sünnətimdən və haqq yolda olan Raşidi xəlifələrinin yolundan azı dişlərinizlə tutub gedin. Dində sonradan çıxacaq yeniliklərdən çəkinin, hər bir bidət (yenilik) zəlalətdir".*[76]

Huzeyfədən (Allah ondan razı olsun) rəvayət olunan əsərdə demişdir: "Muhəmmədin əshabının etmədiyi ibadəti, siz də etməyin. Həqiqətən, əvvəlkilər sonrakılar üçün bir söz də olsa belə tərk etmədilər (hər şeyi çatdırdılar). Ey elm əhli! Allahdan qorxun, sizdən əvvəlkilərin yolunu tutub gedin".[77]

Dərimi[78] belə demişdir: "Bizə Həkəm bin Mübarək, o da Amr bin Yahyadan rəvayət edərək demişdir ki, atamdan, o da atasından eşidərək demişdir: "Biz sübh namazından əvvəl Abdullah bin Məsudun (Allah ondan razı olsun) qapısının yaxınlığında oturardıq, elə ki o, çıxdıqda onunla birlikdə məscidə gedərdik." Bir dəfə Əbu Musa əl-Əşari (Allah ondan razı olsun) bizim yanımıza gələrək dedi: "Əbu Abdurahmən hələ sizin yanınıza çıxmayıbdır?" Dedik: "Xeyr". O çıxana qədər bizimlə birlikdə oturdu, o çıxdıqda hamımız qalxıb onun yanına getdik. Əbu Musa ona dedi: "Ey Əbu Abdurrahmən! Mən bir az əvvəl məsciddə bir hal gördüm və ona önəm vermədən tərk etdim. Ancaq, Allaha həmd olsun ki, onu xeyir gördüm. Əbu Abdurahmən dedi: "O nədir?" Əbu Musə dedi" "Bir az yaşasan onu sən də görəcəksən." Dedi: "Məsciddə halqa şəklində oturub namazı gözləyən toplumlar gördüm, hər halqanın başında bir kişi var idi, halqada olanların da əlində

---

[76] Tirmizi "Əbvəb əl-Elm" (2676), səhih demişdir. Əbu Davud "Kitab əs-Sünnə" (4607). İbn Məcə "Kitab əs-Sünnə" (42). Əhməd bin Hənbəl "Musnəd" (17145), (4/126). Hakim "Mustədrək" (329-333), İsnadı səhihdir.

[77] Müəllif Əbu Davudun rəvayət etdiyini qeyd etmişdir, lakin Əbu Davudun hazırki nüsxəsində bu rəvayət yoxdur. Əbu Şəmə "Kitab əl-Bəis" (S: 70). Ləlƙəi "Etiqad Əhli Sünnə" (1/90), (119). Abdullah bin Əhməd "Əs-Sünnə" (18). Əl-Mərvəzi "Əs-Sünnə" (1/30). İbn Mübarək "Zuhud" (16). Əsərin oxşarı Buxarinin "Kitab əl-Etisam" (7282) kitabında qeyd olunmuşdur. (7282).

[78] Əbu Muhəmməd Abdullah bin Abdurahman hədis imamlarından olmuşdur. "Musnəd əl-Cəmiu Sünən əd-Dərimi" kitabının müəllifidir.

kiçik daşlar var idi. O deyirdi, yüz dəfə “Allahu Əkbər” deyin, onlar da yüz dəfə “Allahu Əkbər” deyirdilər. Sonra deyirdi, yüz dəfə “Lə İləhə İlləllah” deyin, onlar da yüz dəfə “Lə İləhə İlləllah” deyirdilər, sonra yüz dəfə “SubhənAllah” deyin deyirdi, onlar da yüz dəfə “SubhənAllah” deyirdilər.” Əbu Abdurahmən dedi: “Onlara nə dedin?” Əbu Musa dedi: “Mən sənin rəyini və əmrini gözləyənə qədər onlara heçnə demədim.” Əbu Abdurahmən dedi: “Onlara öz pisliklərini saymağı əmr etsəydin və onların yaxşılıqlarından heç bir şeyin zay olamayacağına dair də onlara zəmanət versəydin? Sonra isə o getdi biz də onunla birlikdə getdik. Nəhayət, o halqalardan birinin yanına gələrək dayandı və dedi: “Bu etdikləriniz nədir?” Dedilər: “Ey Əbu Abdurahmən! Kiçik daşlardır, onunla təkbir, təhlil və təsbih deyərək sayırıq.” Əbu Abdurahmən dedi: “Ondansa pisliklərinizi sayın, mən sizin yaxşılıqlarınızdan heç bir şeyin zay olmayacağına zaminəm, vay olsun sizə, ey Muhəmmədin ümməti! Peyğəmbərinizin (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) səhabəsi, hələ çox olduğu halda siz nə tez həlak oldunuz! Onun paltarları köhnəlməmiş, qabları da sınmamışdır. Canım əlində olan Allaha and olsun, ola bilsin, siz elə bir toplumsunuz ki, ya Muhəmmədin ümmətindən daha doğru yoldasınız, ya da zəlalət qapısını açmısınız.” Dedilər: “Vallahi, ey Əbu Abdurahmən! Biz ancaq xeyirdən başqa bir şey istəmədik.” Əbu Abdurahmən dedi: “Neçə-neçə xeyir istəyənlər var ki, ona nail olmayacaqlar.” Allahın Elçisi (Allahın salamı və xeyir-duası onun üzərinə olsun) bizə xəbər vermişdir. “Quran oxuyan toplumlar olacaq, lakin onların (oxuduqları Quran) boğazlarından o tərəfə keçməyəcəkdir. Vallahi, bilmirəm ola bilsin onlardan çoxu sizdən olacaqdır. Sonra isə Əbu Abdurahmən onlardan üz çevirdi.

Amr bin Sələmə (Allah ondan razı olsun) belə demişdir: O halqalarda olanların hamısının Nəhravan[79] günü xəvariclərlə birlikdə bizə qarşı çıxdıqlarını gördük.”[80]

**Allah kömək edəndir və təvəkkül də Ona məxsusdur. Allahın salamı və xeyir-duası Muhəmmədin, əhli beytinin və bütün səhabələrinin üzərinə olsun.**

---

[79] Nəhravan döyüşü hicrətin 38-ci ilində Əli bin Əbi Talib (Allah ondan razı olsun) ilə Xavariclər arasında Bağdad ərazisində yerləşən Nəhravan adlı yerdə baş vermişdir.
[80] Dərimi “Sünən” (210). Nasirəddin Albani “Silsilətu əs-Sahihə” (5/11), (2005). Bəhşəl “Tarix Vasit” (198-199). Xatib əl-Bağdadi “Tarix Bağdad” (12/162), isnadı səhihdir.